Marketinq tədqiqatları əsasında ölkəmizdə qaz kondensat sistemində resurslara olan tələbatın və mütəxəssis kadrlara olan ehtiyac müəyyən edilməlidir. Bu tələbatların planlaşdırılması, uçotu, təhlili və qiymətləndirilməsi aşağıdakı prinsiplərə əsaslandırılmalıdır:

- **Elmi yanaşma.** Qaz kondensat yataqları sistemi sahəsində elni-texniki təqrəqqinin nailiyyətləri nəzərə alınmaqla, resursların səmərəli istifadəsinin planlaşdırılması, təşkili və idarə edilməsində obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalıdır.
- **Sistem yanaşma.** Qaz kondensat yataqları sisteminə vahid bir kibernetik sistem kimi baxılmalıdır. Belə ki, bu tam sistemin bütün elementlərinin qarşılıqlı əlaqələri və təsiri nəzərə alınmalıdır.
- **Kompleks yanaşma.** Qaz kondensat yataqları sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məqsədlərinin həllində texniki-texnoloji, ətraf mühitin qorunması, təşkilatı, ideya-tərbiyəvi, psixoloji, sosial və iqtisadi amillər kompleks halında nəzərə alınmalıdır.
- **Optimalliq.** Qaz kondensat yataqları sistemində resursların istifadəsinin plan-iqtisad, təşkilatı və idarəetmə məsələlərinin çoxvariantlı olduğunu nəzərə alaraq, həmin variantlardan qəbul edilmiş meyara nəzərənən yaxşısının (optimal variantın) seçilməsi tələb olunur. Optimal variantın seçilməsi resursların səmərəli istifadəsinin iqtisadi-riyazi modelləşdirilməsini və müvafiq riyazi optimallaşdırma metodlarının tətbiqini tələb edir. Müvafiq iqtisadi-riyazi modelin reallaşdırılması informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əldə edilir.

[1] Elmi məsləhətçi: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, i.e.d. S.Q. Cümşüdov

– **Səmərəlilik.** Qaz kondensat yataqları sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərinin həlli ilə əlaqədar planlaşdırılacaq tədbirlərin iqtisadi səmərəliliyi qabaqcadan müəyyən edilməlidir.
– **Ekoloji tarazlıq.** Qaz kondensat yataqları sistemində proseslərin ən yeni texnologiya əsasında təşkili. Qaz kondensatın nəqliyyat vasitələrində və stasionar qurğuların mühərriklərinin maye-qaz yanacağına keçirməklə ekoloji tarazlıq təmin edilməlidir.
– **Qənaətlilik.** Qaz kondensat yataqları sisteminin sərəncamında olan bütün resurslarından tam səmərəli istifadə olunmalı, həmçinin təbii, material-texniki, müxtəlif növenerji, əmək və maliyyə resurslarının səmərəli istifadəsinin cari və strateji biznes-planı işlənib hazırlanmalıdır. Resursların səmərəli istifadəsinin cari və strateji biznes-planı əməli-təqvim tədbirlər proqramı – qrafiki üzrə reallaşdırılmalıdır.
– **Sahə və ərazi idarəetmənin məqsədəuyğun əlaqələndirilməsi.** Qaz kondensat yataqları sistemində resursların səmərəli istifadəsinin planlaşdırılması və idarə edilməsində sahə (normativlər) və əraziicra hakimiyyətləri) amillərinin (tədbirlərinin) əlaqələndirilməsi tələb olunur.
– **Maddi və mənəvi həvəsləndirmə.** Qaz kondensat yataqları sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsində kollektivin maddi və mənəvi maraqlarının stimullaşdırılması təmin edilməlidir.
– **Şəxsi, kollektiv və dövlət (ümumxalq) mənafelərinin düzgün əlaqələndirilməsi.** Qaz kondensat yataqları sistemində resursların qorunması, mənimsnilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar şəxsi, kollektiv və ümumxalq (dövlət) mənafeləri düzgün əlaqələndirilməli, uzlaşdırılmalıdır. Burada ümumxalq (dövlət) mənafeyi başlıca meyar kimi qəbul edilməlidir.
– **Təkbaşına rəhbərlik və əməkçilərin hər birinin resurslarının qorunması, mənimsənilməsi və idarə edilməsində iştirakçı - ların təmin edilməsi.** Qaz kondensat yataqları sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsinə nəzarətin təşkili və icranın yoxlanılması zəruri hesab üsilir.
– Qaz kondensat yataqları sistemində nəqliyyat və rabitə infrastrukturu bölmələrinin işinin səmərəli idarə edilməsinə nəzarətin təşkili və icranın yoxlanılmasında diqqət mərkəzində olmalıdır.

Yuxarıdakı prinsipləri nəzərə alaraq qaz kondensat yataqları sistemində cari və strateji biznes-planı işlənib hazırlanarkən həmin sistemin bütün bölmələrinin sərəncamında olan təbii, material-texniki, enerji, əmək, informasiya və maliyyə resursların biznes-plana müvafiq istifadəsinin əsas göstəriciləri aşağıdakı metodika üzrə planlaşdırılmalı, uçota alınmalı və müqayisəli təhli edilərək qiymətləndirilməlidir:

1) təbii resurslarının səmərəli istifadə göstəriciləri:

a) təbii resurslarının gəlirlilik əmsalı:

$$Ə_G^{t.r} = \frac{\sum G_{ü}}{\sum X_{t.r}}$$

burada: $\sum G_{ü}$ – qaz kondensat yataqları sisteminin illik gəlirinin ümumi məbləği; $\sum X_{t.r}$ – təbii resurslarının qorunması və istifadəsi ilə əlaqədar xərclərdir.

b) təbii resurslarının mənfəətlilik əmsalı:

$$Ə_M^{t.r} = \frac{\sum M_b}{\sum X_{t.r}}$$

burada: $\sum M_b$ – illik balans mənfəətinin ümumi məbləğidir.

2) material-texniki resursların səmərəli istifadə göstəriciləri:

a) material-texniki resursların gəlirlilik əmsalı:

$$Ə_G^{m.t} = \frac{\sum G_{ü}}{\sum X_{m.t}}$$

burada: $\sum X_{m.t}$ – material-texniki resurslara çəkilən ümumi xərclərdir.

b) material-texniki resursların mənfəətlilik əmsalı:

$$Ə_G^{en} = \frac{\sum G_{ı}}{\sum X_{m.t}}$$

3) enerji resurslarının səmərəli istifadə göstəriciləri:

a) enerji resursların gəlirlilik əmsalı:

$$Ə_G^{en} = \frac{\sum G_{ü}}{\sum X_{en}}$$

burada: $\sum X_{en}$ – enerji resurslara çəkilən xərclərdir.

b) enerji resursların mənfəətlilik əmsalı:

$$Ə_M^{en} = \frac{\sum M_b}{\sum X_{en}}$$

4) qaz kondensat yataqlaı sistemində əmək resurslarının səmərəli istifadə göstəriciləri:

a) əmək resursların gəlirlilik əmsalı:

$$Ə_G^{ə.r} = \frac{\sum G_{ü}}{\sum Ə_{hf}}$$

burada: $\sum Ə_{hf}$ – illik əmək haqqı fondudur.

b) əmək resursların mənfəətlilik əmsalı:

$$Ə_M^{ə.r} = \frac{\sum M_b}{\sum Ə_{hf}}$$

5) maliyyə resurslarının səmərəli istifadə göstəriciləri:

a) uzun müddətli kreditin gəlirlilik əmsalı:

$$Ə_G^{u.k} = \frac{\sum G_{ü}}{\sum UK}$$

burada: $\sum UK$ – uzun müddətli kreditin illik məbləğidir.

b) uzun müddətli kreditin mənfəətlilik əmsalı:

$$Ə_G^{u.k} = \frac{\sum G_{ü}}{\sum UK}$$

c) qısa müddətli kreditin gəlirlilik əmsalı:

$$Ə_G^{q.k} = \frac{\sum G_{ü}}{\sum QK}$$

burada: $\sum QK$ – qısa müddətli kreditin illik məbləğidir:

d) qısa müddətli kreditin mənfəətlilik əmsalı:

$$Ə_M^{q.k} = \frac{\sum M_b}{\sum QK}$$

## ƏDƏBİYYAT

1. Cümşüdov S.Q. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. Dövlət idarəçiliyi jurnalı. №1(9), Bakı, "Çaşıoğlu", 2005, səh. 96-104.
2. Əhmədov N.Q. Xəzər dənizi Azərbaycan sektoru yataqlarının qaz kondensatlarından dizel mühərrikləri üçün yanacaq kimi istifadə olunması effektivliyinin tədqiqi. Texnika elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, AzTU, 2003, 30 s.
3. Cümşüdov S.Q. Dövlət idarəçilik sistemində qərarların işlənib hazırlanması prinsipləri. AzTU-nun elmi əsərləri, №3, 2007, səh. 62-64.
4. Cümşüdov S.Q. Azərbaycanda "Elektron hökümətin formalaşmasının metodoloji prinsipləri. Elektron hökumət Azərbaycanda." Beynəlxalq konfransın məruzə materialları. AzTU, Bakı 26-28 aprel, 2010, səh. 157-160
5. Cümşüdov S.Q., Rəhimov C.R. Neft-qaz sənayesi məhsullarının nəqliyyatda istifadəsinin ekolji və iqtisadi səmərəliliyi. Bakı, 2009, 167 s.

**Əhmədov N.Q.**

*Azərbaycan Texniki Universiteti*

**Azərbaycan Respublikasının qaz kondensatı mədəninin resursları və onların səmərəli istifadəsinin planlaşdırılması**

**XÜLASƏ**

Məqalədə Azərbaycan Respublikasının qaz kondensatı mədəninin resursları və onların səmərəli istifadəsinin planlaşdırılması məsələlərinə baxılmışdır.

Həmçinin resurslardan səmərəli istifadə üçün planlaşdırmanın əsas metodoloji prinsiplərini araşdırır.

***Açar sözlər:*** *qaz kondensatı, səmərəlilik, elmilik, iqtisadi səmərəlilik, spesifiklik, optimallıq, ekoloji tarazlıq, sənaye tədbirlərinin birləşməsi, həyata keçirilməsinə nəzarət və yoxlanış.*

**Ахмедов Н.Г.**

**Планирование эффективного использования ресурсов газоконденсатных месторождений Азербайджанской Республики**

**РЕЗЮМЕ**

В статье рассмотрены планирование эффективного использования ресурсов газоконденсатных месторождений. Кроме того рассмотрены сущность основных методологических принципов планирования эффективного использования ресурсов.

***Ключевые слова:*** *газовый конденсат, эффективность, научность, экономичность, конкретность, оптимальность, экологическая сбалансированность, сочетание отраслевых мероприятий, контроль и проверка испольнения.*

**Akhmedov N.G.**

**Planning the efficient use of gas condensate field resources in the Republic of Azerbaijan**

**ABSTRACT**

This article examines planning for the efficient use of gas condensate field resources. It also examines the fundamental methodological principles of planning for efficient resource use.

***Key words:*** *gas condensate, efficiency, scientific nature, cost-effectiveness, specificity, optimality, environmental balance, combination of industry measures, control and verification of implementation.*

*Məqaləyə AzTU-nun "Maşınqayırma texnologiyası" kafedrasının dosenti, i.ü.f.d., C.R. Rəhimov rəy vermişdir.*

# HYDROTECHNICS AND AMENITIES
# HİDROTEXNİKA VƏ MELİORASİYA

**UOT 631.67**

**[1]MUSAYEV Z. S., [1]ZƏRBƏLİYEV M.S., [1]QULİYEVA T.Q., [2]ZƏRBƏLİYEVA Ş.M.,**

*[1]Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*[2]Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci Hüquqi Şəxs*

zakirsamed1946@mail.ru, zarbaliyev.m@mail.ru,
teranee1965@gmail.com, shovqiyye1994@mail.ru.

## SÜNİ İNTELLEKT PRİNSİPLƏRİ ƏSASINDA AZƏRBAYCANDA SU EHTİYATLARININ İDARƏ OLUNMASI

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan dövlətlərdən biridir. Ölkəmizin həm iqtisadi, həm də texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27000 Mvt-dır. Bura daxildir: günəş enerjisi-23000 Mvt, külək enerjisi -3000 Mvt, dağ çaylarının potensialı -520 Mvt, bioenerji potensialı -380 Mvt. Bərpa olunan enerji mənbələrinin tətbiq sahələri aşağıdakılardır: kənd təsərrüfatı, meliorasiya, su təchizatı, turizm, sənaye, enerji təchizatı və s.

Azərbaycanın ərazisi arid zonada yerləşdiyinə görə su ehtiyatları məhduddur. Ölkəmizin su ehtiyatları 32,2 milyard $km^3$ təşkil edir. Quraqlıq illərdə isə su ehtiyatları 22.6 milyard $km^3$ qədər azalır. Yeraltı su ehtiyatları 5,3 $km^3$ - dir. Orta illik su çatışmamazlılığı isə 4,6-5,1 milyard $km^3$ arasında dəyişir. Su ehtiyatlarının 70%-ə qədəri ölkəmizdən kənarda formalaşır[13]. Respublikamızın su ehtiyatlarından istifadə olunmasında su obyektlərinin rolu böyükdür. Bura daxildir: su anbarları, su qovşaqları, baş su qəbuledici qurğular, suvarma sistemləri, kollektor-drenaj sistemləri, nasos stansiyaları. Su ehtiyatlarının başqa təbii ehtiyatlara görə özünə məxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərdən biri su ehtiyatı fasiləsiz olaraq bərpa olunur. Günəş enerjisi okean, dəniz və torpaq səthindən suyu buxarlandırır, buxarlanmış su atmosferə qalxır, soyuq qatlarda kondensasiyaya uğrayaraq yağıntı şəklində yer kürəsi səthinə enir. Bu yağıntıların bir hissəsi yerüstü və yeraltı axınları yaradır və yenidən okeanlara, dənizlərə tökülür, bir hissəsi isə təkrar buxarlanırlar. Beləliklə, təbiətdə su dövranı daima təkrar olunur.

Ümumiyyətlə, təbii sərvətləri ilə zəngin olan Azərbaycanda su ehtiyatları məhduddur. Ona görə də, respublikamız su ilə az təminatlı regionlardan sayılır. Qonşu Zaqafqaziya respublikaları ilə müqayisədə Azərbaycan öz yerli su ehtiyatlarına görə axırıncı yerdədir. Əgər Gürgüstanda daxili su ehtiyatları 85%-ə, Ermənistanda 82%-ə bərabərdirsə, respublikamızın ərazisində cəmi 28%-dir. Beləliklə, Azərbaycanın illik su balansının 40%-i Gürcüstanın və 32%-i isə digər respublikanın payına düşür[13].

Mövcud su ehtiyatlarına dair məlumatların analizi nəticəsində demək olar ki, respublikanın su ehtiyatlarının əsas hissəsini Kür, Araz və Samur çayları, hövzələri təşkil edir. Su ehtiyatlarının qalan hissəsi xırda çayların hövzələri, süni və təbii göllər, bulaqlar və yeraltı suların payına düşür. Respublika ərazisində təqribən 47 ədəd suvarma kanalı var. Bunlar içərisində ən böyük kanal uzunluğu 172.4 km, suburaxma qabiliyyəti saniyədə 113 $m^3$ olan və Mingəçevir su anbarından qidalanan Yuxarı Qarabağ suvarma kanalıdır. İkinci yerdə 123.5 km uzunluğu olan Yuxarı Şirvan, üçüncü yerdə isə uzunluğu 110 km olan Samur-Abşeron suvarma kanalı durur. Suvarma kanallarının cəmi uzunluğu 90 min

km.-dən artıq olub 1,3 mln hektar torpaq sahəsinin suvarılmasına imkan verir.

Hazırda ölkə ərazisində 153 su anbarı mövcuddur. Su anbarlarının ümumi su həcmi 21,9 mlrd. m³ təşkil edir. Su anbarlarından yalnız 61 - nin həcmi 1 mln. $m^3$-dən çoxdur. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 16 milyard kubmetr), Şəmkir (həcmi 2,6 milyard kubmetr), Araz çayı üzərindəki Araz (həcmi 1,3 milyard kubmetr), Tərtər çayı üzərindəki Sərsəng (həcmi 0,5 milyard kubmetr) su anbarlarıdır. Su anbarlarının ümumi sahəsi 87 min hektar, suyunun həcmi isə 22 kubkilometrə yaxındır.

Hələ bu yaxınlara qədər minerallığı *1,0 q/l-ə* qədər olan sular suvarma üçün yararlı hesab olunurdu, lakin antropogen təsirlər nəticəsində su mənbələrində suvarma suyunun keyfiyyəti pisləşməkdə davam edir. Həm də su ehtiyatlarının məhdudluğu üzündən yeni su mənbələrindən (kollektor – drenaj, dəniz, tullantı suları və s.) istifadə olunması variantlarına ehtiyac artmaqdadır. Bununla əlaqədar olaraq son 30-40 ildə başqa ölkələrdə olduğu kimi, bizdə də suvarma suyunun keyfiyyətinin yaxşılaşdırılması üzərində ardıcıl olaraq elmi-tədqiqat işləri aparılır. Alınmış nəticələr göstərir ki, suvarma suyunda duzların buraxıla bilən miqdarı torpağın mexaniki tərkibindən, onun su-fiziki, fiziki-kimyəvi xüsusiyyətlərindən, bitkilərin duza davamlılığından, ərazinin drenləmə dərəcəsindən və s. şərtlərdən asılıdır.

Suvarma suyunun keyfiyyətinin pisləşməsi ətraf mühitə və ekoloji sistemə öz mənfi təsirini göstərir. Məişət – kommunal, istehsalat, kənd təsərrüfatının tullantı suları vasitəsi ilə su hövzələrinə müxtəlif toksik maddələr atılır və bunun nəticəsində də ekoloji sistemdə struktur dəyişiklikləri yaranır. Suyun keyfiyyəti aqroekoloji sistemin stabilliyin ən vacib göstəricisidir. O, torpağın münbitliyinə, kənd təsərrüfatı bitkilərinin su tələbatına, məhsuldarlığa və onun keyfiyyətinə təsir göstərir. Eyni zamanda suvarma suyunun keyfiyyəti hidromeliorativ sistemlərdə qurğuların materiallarının saxlanılmasına və onların uzun ömürlülüyünə də təsir göstərir. Bu deyilənlərə əsasən, suvarma suyunun keyfiyyətinin qiymətləndirilməsi üçün ekoloji meyarlardan istifadə olunur.

Ekoloji meyarlar ətraf mühitin öbyektlərinin mühafizəsi nöqteyi-nəzərdən onların çirklənməsinin qarşısının alınması və sanitar-gigiyena təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı istehsalı sahəsində isə onların yerüstü və yeraltı su mənbələrinə təsirinin qiymətləndirilməsinə xidmət edir.

Müasir dövrdə Azərbaycanın su təsərrüfatında su ehtiyatlarından səmərəli istifadə edilməsi, suvarma sistemlərinin modelləşdirilməsi, avtomatlaşdırılması, su təchizatı sistemlərinin yaxşılaşdırılması istiqamətlərində böyük işlər davamlı surətdə aparılır. Yeni avtomatlaşdırılmış texnologiyaların su təsərrüfatı sistemlərinə tətbiqi, suyun idarə olunması, həm də enerjinin alınması və səmərəli, qənaətlə istifadə edilməsi baxımından yeni mərhələyə keçmişdir. Belə ki, bu texnologiyalardan istifadə etməklə ağıllı idarəetmə, süni intellekt prinsiplərini əldə etmiş oluruq. Bu sahədə görülən işlər aşağıdakı istiqamətlərdən ibarətdir:

**1. Su təchizatında ağıllı idarə etmə sistemləri.** Suyun mənbədən istehlakçıya çatdırılmasında və bu prosesin hər bir sahəsində və mərhələsində işlənməsi, idarə olunmanın yerinə yetirilməsindən ibarətdir. Bura daxildir: SKADA sistemləri, yəni su anbarlarına, suqəbuledici qurğulara və digər qurğulara, paylayıcı şəbəkə və kanallara uzaq məsafədən nəzarət edilməsi, suyun səviyyəsinin təzyiqi və axına görə avtomatik açılması, bağlanması və buna nəzarətin həyata keçirilməsi proseslərinin idarə olunmasıdır. Bu isə müəyyən vaxt ərzində baş verir. Həmin vaxt ərzində məlumatların toplanması, su itkisinin, təzyiq düşməsinin və sızmaların sensorlar vasitəsilə həyata keçirilir. Sensor şəbəkələri su təsərrüfatının hər bir sahəsində, hissəsində məlumatların toplanmasını və mərkəzi serverə ötürülməsini əhatə edir.

**2. Rütübət torpaq sensorları isə kənd təsərrüfatında suvarma cədv**əllərini optimallaşdırmağa imkan verir. Ağıllı sayğaclar (smart maters) istifadəçilərin sudan istifadəsini, su sərfiyyatını real vaxt ərzində ölçür və

eyni zamanda baş verən itkiləri dəqiqləşdirir. Sızma detektorları isə şəbəkədəki nasazlıkları tez bir zamanda aşkar edir və təmiri vaxtında həyata keçirməklə təmir və digər xərcləri azaldır.

Ağıllı günəş suvarma idarəetmə sistemi, torpağın nəmlik səviyyəsinə əsasən abadlıq üçün suyun çatdırılmasını planlaşdırır və avtomatlaşdırır. Buraya suvarma zamanı nasosu işə salan su anbarında avtomatlaşdırılmış su səviyyəsinə nəzarət sistemi daxildir. Günəş suvarma panelləri yüksək səmərəli su təchizatı həllidir. Tədqiqatın məqsədi suvarma sistemlərini avtomatlaşdırmaqdır - bitkilərə suyun çatdırılmasını idarə edən və tənzimləyən sensorlar və proqram təminatı ilə təchiz olunmuş inteqrasiya olunmuş sistemlər. Sensorlar optimal suvarma həcmini müəyyən etmək üçün torpağın nəmliyini, hava şəraitini, yağıntıları və digər amilləri izləyir. Sistemin proqram təminatı daha sonra suyu bitkilərin ehtiyaclarına uyğun olaraq paylayacaq və su ehtiyatlarından səmərəli istifadəni təmin edəcəkdir. Avtomatlaşdırılmış suvarma sistemləri əl ilə suvarma ilə müqayisədə sahənin daha səmərəli və peşəkar suvarılmasına imkan verəcəkdir.

Avtomatlaşdırılmış suvarma sistemləri daha dəqiq və səmərəli su istifadəsini təmin edir. Sistemlər lazım olduqda yalnız lazımi miqdarda su vermək üçün konfiqurasiya edilə bilər. Bu, həddindən artıq suvarmanın qarşısını almağa və buxarlanma və ya axıntı yolu ilə su itkisinin qarşısını almağa kömək edir. Bu,böyük torpaq sahələrinin, parkların və təbiət qoruqlarının abadlaşdırılması zamanı su istehlakını əhəmiyyətli dərəcədə azalda bilər. Avtomatik suvarma sistemləri həmçinin bütün yaşıl sahə üzrə daha vahid su paylanmasını təmin edir. Bu, xüsusilə əl ilə suvarmanın qeyri-bərabər ola biləcəyi və quru sahələrə və ya həddindən artıq suvarmaya səbəb ola biləcəyi böyük ərazilərdə vacibdir. Bərabər su paylanması bitkilərin sağlam böyüməsini təşviq edəcək və onların canlılığını qoruyacaqdır. Tədqiqat ümumi qəbul edilmiş suvarma metodlarından istifadə edilərək aparılacaqdır.

Suvarma üçün su sərfiyyatına təsir edən parametrlər:

1. Bitki su tələbatı (aşağı, orta və yüksək). Nəzərə almaq lazımdır ki, müəyyən bir bölgəyə məxsus olmayan bitkilərin su istehlakı yüksək və ya orta səviyyədə olacaq, yerli və ya uyğunlaşdırılmış bitkilərin su tələbatı isə daha proqnozlaşdırıla biləndir.

2. Əkin sıxlığı. Sahədəki bitkilərin sayı da su istehlakına təsir göstərir. Əkin sıxlığının üç səviyyəsi var:
- Aşağı sıxlıq: bitkilər seyrək əkilir;
- Orta sıxlıq: bitkilər bütün sahəni əhatə edir, lakin əsasən bir növ bitki örtüyü istifadə olunur;
- Yüksək sıxlıq: bütün sahəni tamamilə əhatə edən müxtəlif növ bitkilərin (ağaclar, çiçəklər, kollar) istifadəsini nəzərdə tutur.

**3. Mikroiqlim növü:**

Sahədə bitkilərin böyüməsi və inkişafı üçün şəraiti nəzərə alır.
- Sığınacaqlı: binanın şimal tərəfindəki sahə kimi günəş işığından kölgələnən, külək və istidən qorunan sahə;
- Açıq: sahə park və ya idman meydançası kimi açıq, düz ərazidə yerləşir;
- Yüksək təsir: ərazi güclü istiyə və ya küləyə məruz qalır, məsələn, binanın cənub tərəfində və ya yüksək dərəcədə əks etdirən səthin yaxınlığında.

**4. Suvarma Sisteminin Növü:**
- Çiləyici sistemlər: su çiləyicilər-çiləyicilərdən istifadə edərək geniş əraziyə paylanır;
- Damcı suvarma: su sərfiyyatını azaltmaq üçün su aşağı təzyiq altında birbaşa bitkinin kök sisteminə çatdırılır. Sistemin dizaynı həm qazonlar, həm də yaşıl sahələr üçün ən optimal və dəqiq suvarma həcmini təmin edir. Çünki hər bitkinin öz suvarma dərəcəsi tələb olunur. Bundan əlavə, avtomatlaşdırılmış suvarma küləyin sürətini, ətraf mühitin temperaturunu və yağıntını davamlı olaraq izləmək üçün xüsusi sensorlardan istifadə edir. Nəzarətçinin mikroprosessoru bütün bu məlumatları emal edir və suvarma dərəcəsini daha da tənzimləyir.

Suyun keyfiyyətinin monitorinq sistemlərinə çirklənmə səviyyələri, temperatur, pH və oksigen miqdarı da daxil olmaqla müxtəlif su parametrlərini ölçən sensorlar daxildir. Top-

lanan məlumatlar təhlil edilir və suyun keyfiyyətini qiymətləndirmək, çirklənmə və ya oksigen tükənməsi ilə bağlı potensial problemləri müəyyən etmək və su ekosistemlərinin qorunması və bərpası üçün tədbirlər hazırlamaq üçün istifadə olunur. Landşaft dizaynı effektiv suvarma sistemləri vasitəsilə suyun səmərəliliyinə töhfə verə bilər: damcı suvarma, torpaq nəm sensoru ilə suvarma kimi şəhər suvarma sistemləri və toplanan yağış suyu kimi alternativ mənbələrdən istifadə su istehlakını əhəmiyyətli dərəcədə azalda bilər. Bu davamlı yanaşma su ehtiyatlarının qorunmasına kömək edir.

Bu sahədə elmi-tədqiqat institutlarımız müxtəlif təbii və iqtisadi şəraitə uyğun suvarma texnikaları və texnologiyalarını tətbiq etmək, eləcə də yeni suvarma rejimləri və dərəcələri hazırlamaq sahəsində geniş elmi və praktik təcrübəyə malikdir. Tədqiqatın icra planı aşağıdakılardan ibarətdir:

- Şəhər yaşıllaşdırmasının və texniki xidmətinin monitorinqi, avtomatik suvarma sistemlərinin layihələndirilməsi və quraşdırılması və bütün növ qazonların (hidroəkin də daxil olmaqla) quraşdırılması ;
- Müxtəlif landşaftlarda əkin və abadlıq üçün bitki növlərinin seçilməsi; abadlıq üçün az su tələb edən yerli və ya adaptiv bitki növlərinin müəyyən edilməsi; eyni miqdarda su tələb edən bitkilər üçün zonaların yaradılması üçün tədbirlərin hazırlanması;
- Suvarma üçün su istehlakını idarə etmək üçün avtomatlaşdırılmış damcı suvarma sisteminin (torpaqda nəm sensorlarından istifadə etməklə) hazırlanması - Sosial-iqtisadi təsirlərə aşağıdakılar daxildir:
- Şəhərdə ətraf mühit şəraitinin yaxşılaşdırılması;
- Şəhərlərin yaşıllaşdırılması məqsədilə suvarma sistemini avtomatlaşdırmaq üçün günəş texnologiyalarından istifadə enerji xərclərini və karbon emissiyalarını azaltmağa kömək edir və enerji qiymətlərindəki dalğalanmalara qarşı dayanıqlığı artırır;
- Suvarma üçün su istehlakını gündə ən azı 4 litr kvadrat metrə endirmək (yağış suyu suvarma üçün su istehlakının hesablanmasına daxil deyil).

Görülən işlər əsasında aşağıdakı nəticələr gözlənilir:

- dəqiq və səmərəli su istifadəsini təmin edəcək;
- sistemlər yalnız tələb olunan miqdarda və yalnız lazım olduqda təmin ediləcək şəkildə konfiqurasiya ediləcək. Bu, həddindən artıq suvarmanın qarşısını almağa və buxarlanma və ya axıntı yolu ilə su itkisinin qarşısını almağa kömək edəcək. Nəticədə, park abadlaşdırması zamanı su istehlakı əhəmiyyətli dərəcədə azaldılacaq;
- suyun vahid paylanması bitkilərin sağlam böyüməsini təşviq edəcək və onların canlılığını qoruyacaq;
- günəş enerjisinin inteqrasiyası onun muxtariyyətini artıracaq və xərcləri azaldacaq;
- günəş panellərindən istifadənin üstünlükləri arasında yanacaq və ya elektrik enerjisi almağı tələb etmədiyi üçün aşağı əməliyyat xərcləri və ətraf mühitə təsirin azalması baş verəcəkdir.

Su istehlakının azaldılması resursların qorunmasına töhfə verir və yaşıl sahələr müəyyən nəticələr əldə etməklə ətraf mühit şəraitinin yaxşılaşdırılmasına kömək edir.

Su ehtiyatlarının daha dəqiq idarə etmək üşün süni intellekt əsasında qurulmuş modellərə görə toplanan böyük məlumatları analiz edərək nail olmaq olar. Məhz belə möhtəşəm sistemlərdən birisi də Azərbaycanın ərazisində yerləşən Türyançay üzərində qurulmuşdur.

Türyançayın uzunluğu 180 kilometr, suyığıcı hövzəsinin sahəsi 4850 km$^2$-dir. Çay başlanğıcını Böyük Qafqaz dağlarının cənub hissəsindən 3690 m hündürlükdən götürür və süni kanallar vasitəsilə Kür çayına tökülür. Türyançay Azərbaycanın Qəbələ, Ağaş, Ucar və Zərdab rayonlarının ərazisindən keçir. Əsasən suvarma üçün istifadə olunur. Onun başlıca qolları - soldan Tikanlı (uzunluğu-57 km), Bum (uzunluğu -52 km.), sağdan isə Nəzər (uzunluğu-35 km), Qala (uzunluğu -42 km) çaylarıdır. Daşqın dövründə illik axımın 50-60 faizi keçir. Çayda ən az sərf yanvar ayında müşahidə olmuşdur. Çayın orta illik sərfi 15.8 m$^3$/san-dir. İlik axınının həcmi isə 565 milyon kubmetrdir. Asılı gətirmələrin

illik həcminə görə Türyançay Böyük Qafqaz çayları sırasında müstəsnalıq təşkil edir. Belə ki, asılı gətirmələrin orta çoxillik sərfi 48-50 kq/san və orta hesabla Şirvan düzünün bir ildə 2 milyon tona qədər lil aparır. Türyançay respublikanın ən bulanıq çaylarından biridir. Ağdaş rayonunun əhalisini içməli su ilə təmin edir (şəkil 1).

*Şəkil 1 . Türyançay kanalı, mexaniki qapılar*

Türyançayın Ağdaş və Ucar rayonu ərazisində suvarma məqsədi üçün tikilən sağ və sol sahili kanalları 1956-cı ildən istismara verilmişdir. Türyançay kanalının sağ sahil kanalının uzunluğu 27.1 km, su buraxma qabiliyyəti 10 $m^3$/san-dir. Bu kanalların üzərində yeni idarəetmə sistemi ilə avtomatlaşdırılmış 152 ədəd şlüzlər, qapılar və motorlar istismar olunur (şəkil 2, 3). Enerji təchizatı bərpa olunan enerji mənbəyidir. Ağdaş su kanalının üzərində qapıların, siyirtmələrin günəş enerjisi hesabına SCADA sistemlərini tətbiq etməklə idarə olunması həyata keçirilmişdir.

*Şəkil 2. Günəş enerjisi hesabına kanal qapılarının idarə olunması(SCADA tətbiqi)*

*Şəkil 3. Günəş enerjisi ilə çalışan avtomatlaşdırılmış idarə etmə sistemləri*

Türyançay kanalı üzərindəki avtomatlaşdırılmış idarə etmə sistemləri aşağıdakı işlərin ardıcıllıqla həyata keçirilməsinə şərait yaradır:

- Ultrasonik su səviyyəsinin ölçülməsi;
- İstehlakın hesablanması və idarə edilməsi üçün inteqrasiya olunmuş proqram təminatı;
- Günəş enerjisi ilə işləyən batareya sistemi və ya 120-240VAC;
- Hazır SCADA rabitə sistemi;
- Güclü yüksək iş dövrü əməliyyatı;
- Su səviyyəsinə daha yaxşı nəzarət etmək üçün üst-üstə düşən dizayn;
- Su infrastukturunun yaxşılaşdırılması, mexaniki suvarmaya son qoyulması, su itkilərinin azaldılması və xüsusilə müasir ağıllı idarəetmə sistemlərini tətbiq etməklə su istehlakını tənzimləmək qarşıda duran tapşırıqlardır. Burada isə diqqət yetiriləsi məsələlər aşağıdakılardır:
- Suvarma infrastrukturunun təkmilləşdirilməsi;
- Səmərəli suvarma üsullarının və texnologiyalarının tətbiqi;
- Ağıllı suvarma sistemlənin tətbiqi, SCADA idarəetmənin həyata keçirilməsi;
- Bərpa olunan enerji mənbələrindən istifadə etməklə su təchizatı

Son illərdə süni intellekt (Sİ) texnologiyaları çirkab sularının təmizlənməsi də daxil olmaqla, geniş sektorlarda geniş yayılmışdır. Qlobal əhali artımı, sənaye inkişafı və iqlim dəyişikliyi su təmizləyici sistemlər üçün əlavə çətinliklər yaradır və innovativ həllər tələb edir. Sİ təmizləmə proseslərini optimallaşdırmağa, xərcləri azaltmağa və ətraf mühitə təsirini minimuma endirməyə kömək edir. Süni intellekt tarixi məlumatlara və iqlim şəraitinə əsaslanaraq suyun tərkibindəki dəyişiklikləri proqnozlaşdıra bilir. Bu, suyun keyfiyyətində mövsümi dəyişikliklər üçün xüsusilə vacibdir. Süni intellekt təmizləyici qurğuların avtomatlaşdırılmasında həlledici rol oynayır, əl ilə idarəetmə ehtiyacını azaldır və proseslərin etibarlılığını artırır. Müasir süni intellekt sistemləri reagentlərin dozasını avtomatik tənzimləmək, filtrasiya parametrlərini dəyişmək və nasosların işinə nəzarət etmək, enerji xərclərini minimuma endirmək qabiliyyətinə ma-

likdir. Maşın öyrənməsi mümkün nasazlıqları proqnozlaşdıraraq nasosların və filtrlərin işləməsi ilə bağlı məlumatları təhlil edir. Bu, problemlər yaranmazdan əvvəl profilaktik təmirin aparılmasına kömək edir, bu da əməliyyat xərclərini azaldır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**:

1. Миргиёсов, М.И., Насимов, Х.А. Инновационные подходы в очистке воды: роль искусственного интеллекта и современных технологий //Молодой ученый. – 2024. – № 47 (546). – С. 323-325.
2. Барский, А. Б. Нейронные сети: распознавание, управление, принятие решений // Финансы и статистика, 2004.
3. Рутковская, Д., Пилиньский, М., Рутковский, Л. Нейронные сети, генетические алгоритмы и нечеткие системы // Горячая Линия - Телеком, 2006.
4. Каллан, Р. Основные концепции нейронных сетей // Информатика и вычислительная техника, 2003.
5. Джонс, М.Т. Программирование искусственного интеллекта в приложениях //ДМК пресс, 2006.
6. Вопросы применения технологий предиктивной аналитики состояния оборудования на промышленных предприятиях. – Текст: непосредственный // Молодой ученый. –2021. –№9 (351). –URL: https://moluch.ru/archive/351/118369/
7. Q.K. Gül, Kənd təsərrüfatının yeni inkişaf mərhələsində Azərbaycan SSR-də su ehtiyatlarından istifadə yolları, Bakı, 1955, 64 səh.
8. B.A. Məmmədov Göllərin morfometriyası və su balansı, Bakı, "Elm", 1998, 178 səh.
9. Рустамов С.Г., Джафаров Б.С., Гаджибеков Н.Г. Водный баланс бассейнов рек Малого Кавказа, Баку, Издательство «ЭЛМ», 1969, 209 с.
10. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi elektron səhifəsi. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=11676 "Təbii sərvətlərimiz" bölməsi, 2020. "Moderator.az" MMC. https://moderator.az/az/arasdirma /370475/xalqimiz-kelbecerin-qizil-baliqciliq - potensia - lindan-da-gereyince-behrelenmelidir/2021
11. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının rəsmi elektron səhifəsi. https://files.preslib. az/project s/eco/az/eco_m23.pdf
12. Z.S. Musayev, M.Y. Əsədov, K.M. Məmmədov, M.S.Zərbəliyev. Su ehtiyatlatları kompleks istifadəsi, inteqrasiyalı idarə edilməsi və mühafizəsi. Bakı, AzMİU, 2019, 356 səh.

## XÜLASƏ

Azərbaycan "Yaşıl enerji və bərpa olunan enerji mənbələri" üzrə yüksək potensiala malik olan dövlətlərdən biridir.Ölkəmizin həm iqtisadi, həm də texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27000 Mvt-dır. Azəbaycanın ərazisi arid zonada yerləşdiyinə görə su ehtiyatları məhduddur. Ölkəmizin su ehtiyatları 32,2 milyard $km^3$ edir. Ümumiyyətlə, təbii sərvətləri ilə zəngin olan Azərbaycanda su ehtiyatları məhduddur. Ona görə də, respublikamız su ilə az təminatlı regionlardan sayılır.

Ölkəmizdə ərazisində 153 su anbarı mövcuddur. Su anbarlarının ümumi su həcmi 21,9 mlrd. $m^3$ təşkil edir. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 16 milyard $m^3$), Şəmkir (həcmi 2,6 milyard $m^3$), Araz çayı üzərindəki Araz (həcmi 1,3 milyard $m^3$), Tərtər çayı üzərindəki Sərsəng (həcmi 0,5 milyard $m^3$) su anbarlarıdır. Su anbarlarının ümumi sahəsi 87 min hektar, suyunun həcmi isə 22 $km^3$ yaxındır.

Azərbaycanın su təsərrüfatında hal-hazırda su ehtiyatlarından səmərəli istifadə edilməsi, suvarma sistemlərinin modelləşdirilməsi, avtomatlaşdırılması, su təchizatı sistemlərinin yaxşılaşdırılması istiqamətlərində böyük işlər davamlı surətdə aparılır. Su ehtiyatlarının daha dəqiq idarə etmək üşün süni intellekt əsasında qurulmuş modellərə görə toplanan böyük məlumatları analiz edərək nail olmaq olar. Məhz belə möhtəşəm sistemlərdən biri si də Azərbaycanın ərazisində yerləşən Türyançay üzərində qurulmuşdur. Türyançay kanalının sağ sahil kanalının uzunluğu 27.1 km,su buraxma qabiliyyəti 10 $m^3$/san-dir. Bu kanalların üzərində yeni idarəetmə sistemi ilə avtomatlaşdırılmış 152 ədəd şlüzlər, qapılar və motorlar istismar olu -

nur. Enerji təchizatı bərpa olunan enerji mənbəyidir. Ağdaş su kanalının üzərində qapıların, siyirtmələrin günəş enerjisi hesabına SKADA sistemlərini tətbiq etməklə idarə olunması həyata keçirilmişdir.

Son illərdə süni intellekt (Sİ) texnologiyaları çirkab sularının təmizlənməsi də daxil olmaqla, geniş sektorlarda geniş yayılmışdır. Qlobal əhali artımı, sənaye inkişafı və iqlim dəyişikliyi su təmizləyici sistemlər üçün əlavə çətinliklər yaradır və innovativ həllər tələb edir. Sİ təmizləmə proseslərini optimallaşdırmağa, xərcləri azaltmağa və ətraf mühitə təsirini minimuma endirməyə kömək edir. Süni intellekt tarixi məlumatlara və iqlim şəraitinə əsaslanaraq suyun tərkibindəki dəyişiklikləri proqnozlaşdıra bilir. Bu, suyun keyfiyyətində mövsümi dəyişikliklər üçün xüsusilə vacibdir. Süni intellekt təmizləyici qurğuların avtomatlaşdırılmasında həlledici rol oynayır, əl ilə idarəetmə ehtiyacını azaldır və proseslərin etibarlılığını artırır. Müasir süni intellekt sistemləri reagentlərin dozasını avtomatik tənzimləmək, filtrasiya parametrlərini dəyişmək və nasosların işinə nəzarət etmək, enerji xərclərini minimuma endirmək qabiliyyətinə malikdir.

***Açar sözlər:*** *süni intellekt, su ehtiyatları, yaşıl enerji, günəş enerjisi, külək enerjisi, suvarma kanalları, su anbarları, suvarma sistemləri, avtomatlaşdırma.*

## Water resources management in Azerbaijan based on artificial intelligence principles

## SUMMARY

Azerbaijan is one of the countries with high potential in "Green energy and renewable energy sources". The potential of renewable energy sources that can be used both economically and technically is 27,000 MW. Since the territory of Azerbaijan is located in an arid zone, water resources are limited. Our country's water resources are 32.2 billion km$^3$. In general, water resources are limited in Azerbaijan, which is rich in natural resources. Therefore, our republic is considered one of the regions with low water supply.

There are 153 reservoirs in our country. The total water volume of the reservoirs is 21.9 billion m³. The largest of them are the Mingachevir reservoirs on the Kura River (volume 16 billion m$^3$), Shamkir (volume 2.6 billion m$^3$), Araz on the Araz River (volume 1.3 billion m$^3$), and Sarsang on the Tartar River (volume 0.5 billion m$^3$). The total area of the reservoirs is 87 thousand hectares, and the volume of water is about 22 km$^3$.

Currently, great work is being carried out in the water sector of Azerbaijan in the direction of efficient use of water resources, modeling and automation of irrigation systems, and improvement of water supply systems. More accurate management of water resources can be achieved by analyzing large data collected according to models based on artificial intelligence. One of such magnificent systems is built on the Turyanchay River located in Azerbaijan. The length of the right bank channel of the Turyanchay Canal is 27.1 km, and the water discharge capacity is 10 m$^3$/sec. 152 locks, gates and motors automated with a new control system are operated on these channels. Energy supply is a renewable energy source. The gates and valves on the Agdash Water Canal have been controlled using solar energy using SCADA systems. In recent years, artificial intelligence (AI) technologies have become widespread in a wide range of sectors, including wastewater treatment. Global population growth, industrial development and climate change create additional challenges for water treatment systems and require innovative solutions. AI helps to optimize treatment processes, reduce costs and minimize environmental impact. Artificial intelligence can predict changes in water composition based on historical data and climate conditions. This is especially important for seasonal changes in water quality. Artificial intelligence plays a crucial role in the automation of treatment plants, reducing the need for manual control and increasing the reliability of processes. Modern artificial intelligence systems are able to automatically adjust the dosage of reagents, change filtration parameters and control the operation of pumps, minimizing energy costs.

***Keywords:*** *artificial intelligence, water*

*resources, green energy, solar energy, wind energy, irrigation canals, reservoirs, irrigation systems, automation.*

**Правление водными ресурсами в Азербайджане на снове принципов искусственного интеллекта**

**РЕЗЮМЕ**

Азербайджан входит в число стран с высоким потенциалом в области «зелёной энергетики и возобновляемых источников энергии». Потенциал возобновляемых источников энергии, который может быть использован как экономически, так и технически, составляет 27 000 МВт. Поскольку территория Азербайджана расположена в засушливой зоне, водные ресурсы ограничены. Водные ресурсы нашей страны составляют 32,2 млрд. км³. В целом, водные ресурсы Азербайджана, богатого природными ресурсами, ограничены. Поэтому наша республика считается одним из регионов с низким уровнем водообеспеченности.

В нашей стране имеется 153 водохранилища. Общий объём воды водохранилищ составляет 21,9 млрд. м³. Наиболее крупными из них являются Мингячевирское водохранилище на реке Кура (объём 16 млрд. м³), Шамкирское (объём 2,6 млрд. м³), Аразское на реке Араз (объём 1,3 млрд. м³) и Сарсангское на реке Тертер (объём 0,5 млрд. м³). Общая площадь водохранилищ составляет 87 тыс. га, а объем воды - около 22 км$^3$.

В настоящее время в водном секторе Азербайджана проводится большая работа по эффективному использованию водных ресурсов, моделированию и автоматизации ирригационных систем, а также совершенствованию систем водоснабжения. Более точное управление водными ресурсами может быть достигнуто путем анализа больших объемов данных, собранных с помощью моделей на основе искусственного интеллекта. Одна из таких великолепных систем построена на реке Турьянчай, расположенной в Азербайджане. Протяженность правобережного русла Турьянчайского канала составляет 27,1 км, а пропускная способность – 10 м$^3$/сек. На этих каналах работают 152 шлюза, затвора и привода, автоматизированные новой системой управления. Энергоснабжение осуществляется за счет возобновляемых источников энергии. Затворы и клапаны Агдашского водоканала управляются с помощью солнечной энергии с использованием SCADA-систем. В последние годы технологии искусственного интеллекта (ИИ) получили широкое распространение в широком спектре отраслей, включая очистку сточных вод. Рост населения планеты, развитие промышленности и изменение климата создают дополнительные проблемы для систем очистки воды и требуют инновационных решений. ИИ помогает оптимизировать процессы очистки, снизить затраты и минимизировать воздействие на окружающую среду. Искусственный интеллект способен прогнозировать изменения состава воды на основе исторических данных и климатических условий. Это особенно важно при сезонных изменениях качества воды. Искусственный интеллект играет важнейшую роль в автоматизации очистных сооружений, снижая необходимость ручного управления и повышая надежность процессов. Современные системы искусственного интеллекта способны автоматически корректировать дозировку реагентов, изменять параметры фильтрации и управлять работой насосов, минимизируя энергозатраты.

***Ключевые слова:*** *искусственный интеллект, водные ресурсы, зеленая энергетика, солнечная энергия, ветровая энергия, оросительные каналы, водохранилища, оросительные системы, автоматизация.*

*Məqaləyə*
*Qazazxstan Respublikasının Dədə Korkut adına Qızıl Orda Universitetinin dosenti, t.ü.f.d. Ş.M.Umbetova rəy vermişdir.*

**UOT 627.41.1**

**HƏSƏNOV E.E., BABAYEV M.R.**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti.*

# HİDROTEXNİKİ VƏ YOL TİKİNTİSİNDƏ TƏTBİQ EDİLƏN QABİON TİPLİ İSTİNAD DİVARLARININ DAYANIQLIĞA HESABLANMASI

**Giriş.** İstinad divarları unikal tikinti konstruksiyasıdır və bu tip konstruksiyalar mülki, sənaye, yol, hidrotexniki tikintidə geniş tətbiq edilir. Hidrotexniki və yol tikintisində yamacların sürüşməyə qarşı dayanıqlıq baxımından bir neçə mühəndisi konstruksiyalar tədbiq edilir ki, bunlardan müxtəlif konstruksiyalı istinad divarlarını və svayları qeyd etdirmək olar [1, 5].

İstinad divarları müxtəlif konstruksiyalı və ölçülü olmaqala yanaşı yamacların dayanıqlığında bir çox mühəndisi məsələlərin həllinə imkan yaradır. Bu səbəbdən istinad diarları həm konstruktiv həm də materialların müxtəlifliyi baxımından fərqli ola bilirlər.

Müasir zamanda keyfiyyətli konstruksiyaların inşaası və onların uzun müddətli istismarı tikinti sektorunda çalışan və bu sahənin aparıcı mütəxəssislərinin diqqət mərkəzindədir. İstinad divarları ciddi mühəndisi konstruksiya olduğundan onların dayanıqlığıa hesablanması mexanikanın qanunları ilə və riyazı hesabatlarla təsbit olunmalıdır.

**Material və metodlar.** Tədqiqat predmeti kimi Bakı-Şamaxı avtomobil yolunun Ceyrankeçmər ərazisinin geoloji-kəşfiyat məlumatları və mühəndis geologların apardıqları tədqiqatlar əsas götürülmüşdür. Burada yol kənarında yerləşən yamaclarda qruntların fiziki və mexaniki xasissələri götürülmüş və hər kəsiyə uyğun olaraq qrunt suyunun səviyyəsi müəyyən olunmuşdur. Hesabatların aparılmasının sadələşdirilməsi üçün qruntları eynicinsli kimi qəbul edərək onun hesabi sıxlığını $\rho_{qr} = 17.5 kN/m^3$ kimi qəbul etmişik [2].

Əldə olunmuş materiallar və normativ sənədlər əsasında yamacların qaboin tipli istinad divarları konstruksiyası ilə bərkidilməsinin dayanıqlığa hesabatı aparılmışdır. Qeyd etmək lazımdır ki, qruntla qabion arasında sürtünmə əmsalı $f=0,5$ qəbul edilib. Qabion metal torlu əhatələnmiş həcmi bloka doldurulmuş müxtəlif ölçülü daşlardan qurulmuşdur.Həmin daşların həcm çəkisi $\gamma = 17.8 \frac{kN}{m^3}$ kimi qəbul edilir. Əks tökmə qruntun və ya təbii yamacı təşkil edən qruntun həcm çəkisini tapmaq üçün aşağıdakı ifadədən istifadə edirik:

$$\gamma_{qr} = \rho_{qr} \gamma_{lc} \gamma_f \qquad (1)$$

Burada, $\gamma_{lc}$ −yükləri nəzərə alan əmsaldır; $\gamma_f$- tökmə qruntlar üçün yüklərin etibarlıq əmsalıdır, 1.15 kimi qəbul edirik.

Hesabat sxemi şəkil 2-də verilmişdir.

*Şəkil. 1.Qabionla inşa olunmuş avtomobil yolunun görünüşü.*

Yamacların dayanıqlıq məsələlərində qrunt mühitinin fiziki parametrləri ilə yanaşı qrunt suyunu səviyyəsi nəzərə alınmalıdır. Yamacların dayanıqlığında qrunt suyunun səviyyəsini nəzərə alınması məsələnin həllini daha real şaraitə uyğun olduğunu təsbit edir. Bu səbəbdən qrunt suyunuda yarana hidrostatik təzyiqi aşağıdakı ifadə ilə tapmaq olar:

$$F_g' = \rho g h_g \quad (2)$$

burada, $\rho$ – yamac qruntunun sıxlığıdır *(kN/m³);* $g$- sərbəst düşmə təcili (m/s²); $h_g$ - Qabionun dabanından qrunt suyun sərbəst səthinə qədər olan hündürlük.



*Şəkil 2. Qabion tipli istinad divarının dayanıqlığa hesabat sxemi.*

**Məsələ həlli və nəticə.** İstinad divarın dayanaıqlıq məsələlinin həllində ilkin olaraq konstruksiyanın sürüşməyə və aşmaya dayanıqlıq şərtlərinə cavab verməsi yoxlanılmalıdır. Bunun üçün konstruksiyaya təsir edən qüvvələrin aşma nöqtəsinə nəzərən momentləri hesablanmalı və normativ qiymətləri ilə müqaisə olunmalıdır. Qabion tipli istinad divarlarına təsir edən yük və qüvvələri müəyyən edək [3].

1. Yataq qruntlarına qabionun ağırlığından yarana təzyiqi təyin etmək üçün aşağıdakı ifadədən istifadə edəcəyik.

$$G_i = l_i h \gamma_i \gamma_f \quad (3)$$

Burada $l_i -$ qabionun hər qatının daban uzunluğu (m); $h -$qabionun hər hissəsinin hündürlüyü (m); $\gamma_i -$har blokun həcm çəkisi (kN/m³): $\gamma_f$- tökmə qruntlar üçün yüklərin etibarlıq əmsalıdır.

2. Qabiona qrunt suyundan yaranan hidrostatik təzyiq qüvvəsi.

$$F_q' = \rho g h_q^2 b; \quad (4)$$

Burada, $\rho -$ suyun sıxlığı (kq/m³); $g$ – sərbəst düşmə təcili (m/s²); $h_q$ – qrunt suyunun dabandan sərbədt səthə qədər olasn hündürlülük (m); $b$- divara təzyiqin təsin eni, (m)

3. Əks tökmə və təbii qrunt yatğının istinad divarına təsir edən reaktiv qüvvəni aşağıdakı kimi təyin etmək olar:

$$F_{gr} = \frac{1}{2}\gamma_{qr} H t g^2\left(45^\circ - \frac{\varphi}{2}\right) \quad (5)$$

Burada, $H$-qrunt təbəqəsinin hündürlüyü, (m); $\varphi$- qruntun təbii yamac ducağı.

İstinad divarının dayanılıq məsələsinin həllə ədədi üsulla aparılması və nəticələrin normativ qiymətlərlə müqaisə olunması işin əsas mahiyəti kimi qiymətləndirilir. Bunun üçün şəkil 2-də verilən sxemə əsasən hisabatlarımı apararaq çevirici və sürüşdürücü momentləri tapmaqla müqaisəni aparmalıyıq.
İlkin olaraq, yataq qruntlarına qabionun ağırlığından yaranan təzyiqi təyin edək:

$$G_1 = l_1 h \gamma_1 \gamma_f = 1 \cdot 1 \cdot 17.8 \cdot 1 \cdot 1.15 = 20.47 kN$$
$$G_2 = l_2 h \gamma_2 \gamma_f = 2 \cdot 1 \cdot 17.8 \cdot 1 \cdot 1.15 = 40.94 kN$$
$$G_3 = l_3 h \gamma_3 \gamma_f = 3 \cdot 1 \cdot 17.8 \cdot 1 \cdot 1.15 = 61.41 kN$$
$$G_4 = l_4 h \gamma_4 \gamma_f = 4 \cdot 1 \cdot 17.8 \cdot 1 \cdot 1.15 = 81.88 kN$$
$$G_5 = l_5 h \gamma_5 \gamma_f = 5 \cdot 0.85 \cdot 17.8 \cdot 1 \cdot 1.15 = 86.99 kN$$

Bünövrə əsasının 1 p.m düşən hesabi gərginliyi hesablayaq:

$$\sigma = \frac{\sum G_i}{bl} = \frac{G_1 + G_2 + G_3 + G_4 + G_5}{1 \cdot 5} =$$
$$= \frac{20.47 + 40.94 + 61.41 + 81.88 + 86.99}{1 \cdot 5} =$$
$$= 48.65 kN / m^2$$

Burada $l$ –qabionun aşağı hissəsinin uzunluğu *l=5.0 m*

Alınmış nəticəni müqaisə etdək:

$$\sigma = 48.65 \frac{kN}{m^2} = 0.04865 MPa < \sigma_{gr} = 7.8 MPa$$

Göründüyü kimi qabionun ağırlığından əsasın qruntunun sıxılma şərti tam ödənilir. Sonrakı hesablamalarda $A$ nöqtəsinə görə saxlayıcı və çevirici momentlərini hesablamaq tələb olunur.

Saxlayıcı momenti tapaq:

$$M_{sax} = \sum G_1 x_i = G_1 x_1 + G_2 x_2 +$$
$$+G_3 x_3 + G_4 x_4 + + G_5 x_5 = 20.47 \cdot 4.5 +$$
$$+40.94 \cdot 4.0 + 61.41 \cdot 3.5 + 81.88 \cdot 3.0 +$$
$$+86.99 \cdot 2.5 = 1178.91 KNm$$
$$M_{sax} = 1178.91 kNm$$

Çevirici momenti tapaq:

$$M_{çev} = F_{gr} z + F_q z'$$

Burada $z=1/3H=1.67m$, $z' = \frac{1}{3h_s} = 0.76m$

$$M_{çev} = F_{gr} z + F_q z' =$$
$$= \frac{1}{2} \gamma_{qr} H tg^2 \left( 45^\circ - \frac{\varphi}{2} \right) z + \rho g h_q^2 b z' =$$
$$= 58.49 + 0.49 = 58.98 kNm$$
$$M_{çev} = 58.98 kNm$$

O zaman, müqaisə etdikdə deyə bilərik ki, istinad divarı çevrilməyə dayanıqlıdır.

$$M_{sax} = 1178.91 kNm > M_{çev} = 58.98 kNm$$

4. Qrunt mühitilə təmasda olan qabionun aşağı hissəsinin qrunta təsir edən kənar təsirini hesablayaq.

Bunun üçün aşağıdakı ifadələrdən istifadə edirik:

$$\sigma_A = \frac{\sum G_i}{A_f} + \frac{\sum M_A}{W_f};\ \sigma_B = \frac{\sum G_i}{A_f} - \frac{\sum M_A}{W_f}.$$

Burada, $\sigma_A$ −A nöqtəsində qrunta təsir edən kənar təzyiqin maksimal qiymətidir, (kN/sm$^2$); $\sigma_B$ −B nöqtəsində qrunta təsir edən kənar təzyiqin maksimal qiymətidir, (kN/sm$^2$); $A_f$ − özül konstruksiyasının daban hissəsinin sahəsi, (sm$^2$); $W_f$ −statiki moment, (sm$^3$).

$$A_f = \ell b = 5 \cdot 1 = 5 m^2$$
$$W_f = \frac{bl^2}{6} = \frac{1 \cdot 5^2}{6} = 4.16 m^3$$
$$\sum G_i = 291.65 kN$$
$$\sum M_A = M_{sax} = 1178.91 kNm$$

Verilənləri yerinə yazsaq alarıq:

$$\sigma_A = \frac{\sum G_i}{A_f} + \frac{\sum M_A}{W_f} \frac{291.65}{50000} + \frac{117891}{6 \cdot 10^6} =$$
$$= 0.005833 + 0.019664 = 0.025497$$
$$\sigma_B = \frac{\sum G_i}{A_f} + \frac{\sum M_A}{W_f} \frac{291.65}{50000} - \frac{117891}{6 \cdot 10^6} =$$
$$= 0.005833 - 0.01966 = -0.013831$$

Bu qiymətlərə uyğun gərginlik epürunu quraq.




*Şəkil 3. İstinad divarının dabanına qruntun əks təsir epürunu.*

Qabionların qurulması üçün metal teldən istifadə olunur və bu tellər ağırlıqdan qırıldıqda konstruksiyanın dayanıqlığı pozula bilir. Bu səbəbdən metall-tor karkasın tellərinin qırılma gərginliyinə hesablamanı yoxlayaq [4]. Hesablama ifadəsi aşağıdakı kimi olacaq:

$$P = K \gamma_{tor} H_{id} \qquad (6)$$

burada, $K=1.5$ ehtiyat əmsal; $\gamma_{tor}$–$17,9\ (kNm^3)$ metal torun həcm çəkisi; $H_{id}$=4.8m - istinad divarın ümumi hündürlüyü.

Verilənləri (6) nəzərə alsaq, hesablayarıq:

$$P=1.5 \cdot 17.9 \cdot 4.8 = 128.8 \text{ kN/m}$$

